*UOT 159.9.*

***Zülfiyyə Rufət qızı Rüstəmova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Pedaqoji psixologiya kafedrasının müəllimi,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun fəlsəfə doktoru proqramı üzrə dissertantı*
*https://orcid.org/0000-0002-2763-3671*
*E-mail: rustamovazulfiyya@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(6).355-359*

# YENİYETMƏLİK YAŞ DÖVRÜNDƏ "MƏN OBRAZ"ININ TƏŞƏKKÜLÜ VƏ AQRESSİVLİYİN TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

***Zulfiya Rufat Rustamova***
*lecturer of the department of Educational psychology at Azerbaijan State Pedagogical University,*
*Doctorial student in the program of doctor of philosophy of the*
*Institute of Education of the Republic of Azerbaijan*

# FORMATION OF THE "SELF-IMAGE" AND CHARACTERISTICS OF AGGRESSION IN ADOLESCENCE

***Зульфия Руфат гызы Рустамова***
*преподаватель кафедры Педагогической психологии Азербайджанского Государственного Педагогического Университета,*
*диссертант по программе доктора философии Института Образования Азербайджанской Республики*

# ФОРМИРОВАНИЕ «ОБРАЗА Я» И ОСОБЕННОСТИ ПРОЯВЛЕНИЯ АГРЕССИИ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

**Xülasə.** Elmi məqalədə yeniyetməlik yaş dövründə "Mən obraz"ının təşəkkülü və aqressivliyin təzahür xüsusiyyətləri araşdırılır. Bu məqalədə əsas məqsəd yeniyetmələrdə aqressiyanın spesifik təzahürlərini və onların "Mən obraz"ı ilə əlaqəsini psixoloji təhlil etməkdir. Məqalədə qeyd edilir ki, aqressivlik aqressiyaya hazır olmaqda, başqalarının davranışını düşmənçilik kimi qəbul etmək və şərh etmək meylində ifadə olunan nisbətən sabit bir şəxsiyyət xüsusiyyətidir. Elmi məqalə həmçinin yeniyetməlik yaş dövründə aqressiyanı araşdıran sınaq tədqiqatı zamanı əldə edilən məlumatları sənədləşdirmək məqsədi daşıyır.
***Açar sözlər:*** *yeniyetmə, aqressivlik, aqressivliyin formaları, "Mən obraz"ı, özünüqiymətləndirmə*

**Abstract.** The scientific article examines the formation of the "I-image" and the manifestations of aggression in adolescence. The main goal of this article is to psychologically analyze the specific manifestations of aggression in adolescents and their relationship with the "I-image". The article notes that aggression is a relatively stable personality trait expressed in the readiness for aggression, the tendency to perceive and interpret the behavior of others as hostility. The scientific article also aims to document the data obtained during an experimental study investigating aggression in adolescence.
***Keywords:*** *teenager, aggression, forms of aggression, "I-image", self-esteem*

**Аннотация.** В научной статье рассматривается формирование образа «Я» и проявления агрессии в подростковом возрасте. Основная цель статьи психологический анализ особенностей проявления агрессии у подростков и её взаимосвязи с образом «Я». В статье отмечается, что агрессия – относительно устойчивая черта личности, выражающаяся в готовности к агрессии, склонности воспринимать и интерпретировать поведение окружающих как враждебное. В научной статье также рассматриваются данные, полученные в ходе экспериментального исследования агрессии в подростковом возрасте.
***Ключевые слова:*** *подросток, агрессия, формы агрессии, «Я-образ», самооценка*

Biz hər gün aqressiyanın müxtəlif təzahürləri haqqında öyrənirik: müharibələr, terror hücumları, etnik münaqişələr, qətllər, güclülərin zəiflərə qarşı zorakılığı – biz bunlarla hər gün qarşılaşırıq. Hər bir yaş insanın həyatında həlledici mərhələdir və onun sonrakı taleyini müəyyən edir. Onların sosial vəziyyətinin və həyat təcrübələrinin spesifikliyi daxili ziddiyyətlərlə səciyyələnən psixikada özünü göstərir. Yeniyetmələr arasında aqressiv meyllərin artması getdikcə daha çox özünü göstərir və cəmiyyətin ən mühüm sosial problemlərindən birini əks etdirir: bu yaş qrupu çoxlu sayda münaqişələr, təcavüz və həmyaşıdlarına qarşı zorakılıqla xarakterizə olunur. Son vaxtlar yetkinlik yaşına çatmayanlar arasında cinayətlər daha da artmışdır. Cəmiyyətdəki iqtisadi qeyri-sabitlik və sosial gərginlik insanlar arasında zorakılığın və aqressiyanın artmasına səbəb olur. Aqressiya, ilk növbədə, uşaqlıq və yeniyetməlik dövründə erkən sosiallaşma zamanı inkişaf edir və bu yaş xüsusilə profilaktika və müdaxilə üçün əlverişlidir. Bu, aqressiyanın spesifik təzahürlərini və yeniyetmənin “Mən obraz”ı ilə əlaqəsini öyrənməyin aktuallığını göstərir. Yeniyetməlik yaş dövrünü "çətin" və "böhran" dövr hesab edirlər. Bu çətinliklər müəyyən xüsusiyyətlərlə təzahür edir:

- ***Birincisi,*** maraqlarda və sosial münasibətlərdə çoxsaylı keyfiyyət dəyişiklikləri nisbətən qısa müddət ərzində baş verir, inkişaf prosesinə qəfil, təlatümlü xarakter verir;

- ***İkincisi,*** bu dəyişikliklər tez-tez yeniyetmələrdə subyektiv çətinliklərin (onların tərbiyəsində çətinliklər) yaranması ilə müşayiət olunur;

- ***Üçüncüsü,*** yeniyetmələr böyüklərin təsirinə davamlı olub itaətsizlik, müqavimət və etirazın müxtəlif formalarını (inadkarlıq, kobudluq, neqativizm) nümayiş etdirirlər. Bu zaman şəxsiyyət xüsusiyyəti olan aqressivlik şübhəsiz ki, problemə çevrilir.

Fikrimizcə, aqressiya yeniyetmənin özü üçün qəbul etdiyi “Mən obraz”ın psixoloji xüsusiyyətlərinin nəticəsidir. Bu baxımdan insan psixikası və onun tərkib hissəsi kimi “Mən obraz”ın qorunması sualı ortaya çıxır. Müxtəlif müəlliflər aqressiyanın ədəbiyyatlarda çox sayda təriflərini təklif etmişlər, lakin biz “aqressiya fiziki və ya psixi zərər vurmağa yönəlmiş qəsdən (və ya istəmədən) hərəkətdir” fikrini əsas götürəcəyik.

Aqressivlik aqressiyaya hazır olmaqda, həmçinin başqalarının davranışını düşmənçilik kimi qəbul etmək və şərh etmək meylində ifadə olunan nisbətən sabit bir şəxsiyyət xüsusiyyətidir. Şəxsiyyət strukturunun davamlı, ayrılmaz hissəsi olan aqressivlik yeniyetməlik yaş dövründə şagirdlərin “Mən obraz”ının inkişafına təsir göstərən amilləri və ümumi davranış nümunələrini əvvəlcədən müəyyən edə bilir.

Aqressiv yeniyetmə, ilk növbədə, adi uşaqdır. Onlar aqressiv xüsusiyyətləri və keyfiyyətləri tərbiyədəki səhvlərin, nöqsanların, ətraf mühitdə anlaşılmazlıqların təsiri nəticəsində əldə edirlər. Müxtəlif şəxsiyyət xüsusiyyətlərinə və davranış nümunələrinə baxmayaraq aqressiv yeniyetmələr müəyyən ümumi xüsusiyyətlərə malikdirlər. Bu psixoloji xüsusiyyətlərə dəyər oriyentasiyalarının azlığı, hobbilərin olmaması, qeyri-sabit maraqlar və s. daxildir. Belə yeniyetmələr adətən aşağı səviyyədə intellektual inkişaf, təqlidçilik və inkişaf etməmiş əxlaqi davranışlar nümayiş etdirirlər.

Onlar həm həmyaşıdlarına, həm də ətrafındakı böyüklərə qarşı emosional kobud davranışları ilə xarakterizə olunurlar. Belə yeniyetmələr həddindən artıq hissiyyatlı (müsbət və ya son dərəcə mənfi), həyəcanlı, eqoist, çətin vəziyyətlərdən çıxış yolu tapa bilməmək xüsusiyyətləri ilə fərqlənirlər. Özlərinin müdafiə mexanizmlərinin digərlərinin davranış mexanizmlərindən üstün olmasını nümayiş etdirirlər. Eyni zamanda, aqressiv yeniyetmələr arasında intellektual və sosial cəhətdən yaxşı inkişaf etmiş uşaqlar da var. Onlar üçün aqressivlik nüfuzu artırmaq, müstəqilliklərini və yetkinliklərini nümayiş etdirmək vasitəsi kimi təzahür edir. L.M. Semenyukun bu problemin geniş təhlilinə və uzun illər araşdırmasına əsaslanaraq onun dörd qrupunu müəyyənləşdirmişdir:

**1)** *Davamlı, anomal, kobud və sadə tələbatlar kompleksi, təhrif olunmuş dəyərlər və münasibətlər, istehlakçı əyləncələr istəyi olan yeniyetmələr.* Onlar eqoizm, başqalarının hisslərinə laqeydlik, başqaları ilə yola gedə bilməmək, səlahiyyətsiz, kinsiz, kobud, əsəbi, həyasız və laqeyd kimi xüsusiyyətlərlə xarakterizə olunurlar. Onların davranışlarında fiziki aqressiya üstünlük təşkil edir.

**2)** *Təhrif edilmiş tələbat və dəyərlərə malik olan yeniyetmələr.* Onlar maraqların az və ya

çox dərəcədə geniş diapazonu və yüksək fərdiyyətçilik ilə xarakterizə olunurlar, zəifləri və imkansızları sıxışdırmaqla imtiyazlı mövqe əldə etmək istəyi onlarda özünü qabarıq şəkildə göstərir. Onların fiziki güc tətbiq etmək istəyi situativ olub yalnız zəif olanlara qarşı olması tez-tez müşahidə olunur.

**3)** *Deformasiyaya uğramış və müsbət tələbatlar arasında ziddiyyətli yeniyetmələr*. Onlar maraqların birtərəfliliyi, fürsətçilik, iddia və hiylə ilə xarakterizə olunurlar. Onların davranışlarında dolayı və şifahi aqressiya üstünlük təşkil edir.

**4)** *İradə zəifliyi, şübhəlilik, qorxaqlıq və qisasçılıqla səciyyələnən, ehtiyacları yüngül deformasiyaya uğramış, spesifik maraqları olmayan, sosial dairəsi çox məhdud olan yeniyetmələr*. Onlar yaşlı və güclü həmyaşıdlarına qarşı həvəslən - dirici davranışlarla xarakterizə olunurlar. Onların davranışlarında şifahi aqressivlik və neqativlik üstünlük təşkil edir. Bundan əlavə, böyüyən bir yeniyetmənin mübarizədən başqa çıxış yolu görmədiyi bir vəziyyətdə özünümüdafiə və ya ehtiyaclarını ödəmək aqressiyaya səbəb ola bilər. Yeniyetməlik yaş dövründə fərdlərin mürəkkəb və ziddiyyətli xarakteri onların inkişafının daxili və xarici şəraiti ilə əlaqədar şəxsi inkişafın normal gedişini pozan, aqressiyanın yaranması və təzahürü üçün ilkin şərait yaradan vəziyyətlər yarana bilər.

A.A. Xvan yeniyetmələrdə aqressiv davranışın səbəblərini insanlar üzərində hökmranlıq etmək və onlardan öz məqsədləri üçün istifadə etmək istəyi, məhv etməyə və başqalarına zərər vurmağa meyl kimi təhlil edir (1, s. 35).

Şəxsiyyət böhranı yeniyetmənin başqaları tərəfindən özünü dərk etməsinə, tənhalığa və ətrafdakılardan təcrid olunmasına, habelə öz mənliyi ilə müəyyən ideallar arasında uyğunsuzluğa, daxili bütövlüyün itirilməsinə qarşı narahatçılığa gətirib çıxarır. Bu davranış forması davranış pozuntuları, səbəbsiz əhval dəyişikliklərinin olması, əlverişli şəraitdə kompensasiya etmək qabiliyyəti və affektiv reaksiyaların yüngül somatovegetativ komponenti ilə xarakterizə olunur.

Yeniyetmələrdə aqressiv davranış etirazla səciyyələnir və epizodik şəkildə baş verir. Ümumiyyətlə yeniyetmələrin başqaları ilə münasibətlərini pozmur. Bu şəxsiyyətin yüksək sosial-psixoloji keyfiyyətlərindəki kəmiyyət çatışmazlığının, düzgün olmayan davranış münasibətlərinin, hüquqi şüurun zəif olmasının, dəyər yönümləri sistemindəki təhriflərin nəticəsidir. M.İ. Stankin aqressiv davranışın inkişafına təsir edən xarici amilləri öyrənir. Ən çox müzakirə olunan məsələlərdən biri də yeniyetmələrin aqressiv davranışlarına medianın təsiridir (2).

Yetkinləşmənin mühüm mərhələsi özünüdərketmə prosesidir. Yeniyetmələrdə "mən"in subyektiv obrazı əsasən başqalarının fikirləri ilə formalaşır. Özünüqiymətləndirmə özünüdərketmənin vacib komponentidir. Çox vaxt yeniyetmələrin özünüqiymətləndirmələri qeyri-adekvat olur, ya artmağa meyllidir, ya da özünüqiymətləndirmə əhəmiyyətli dərəcədə azalır. Yeniyetmənin əsas xüsusiyyəti şəxsi qeyri-sabitlikdir.

L.S. Vıgotskiyə görə, "yeniyetmə şəxsiyyətinin strukturunda sabit, son və ya hərəkətsiz heç bir şey yoxdur". Bir-birinə zidd olan istəklər və hərəkətlər məhz şəxsi qeyri-sabitlik nəticəsində yaranır. Təxminən 11-12 yaşlarında insanın daxili aləminə maraq təzahür edir, tədricən mürəkkəbləşir və özünütanıma dərinləşir. Yeniyetmə öz daxili dünyasını kəşf edir. O, yeni münasibətlərlə bağlı şəxsi xüsusiyyətlərini, təəssüratlarını və ehtiraslı hərəkətlərini qərəzli şəkildə təhlil edir.

Yeniyetmələr həqiqətən kim olduqlarını başa düşmək və nə olmaq istədiklərini təsəvvür etmək istəyirlər. Güzgü kimi baxdıqları oxşarlıqlar axtardıqları dostlar və müəyyən dərəcədə yaxın böyüklər onlara özlərini anlamağa kömək edir. Yeniyetmənin refleksiyası və özünü dərk etmək ehtiyacı onun "Mən obraz"ının inkişafına səbəb olur. Bu yaş dövrünün sonunda müxtəlif mənlik təsəvvürləri yaranır, yeniyetmə xarici təsirlərə həssas olur. Yeniyetməlik yaş mərhələsinin sonunda onlar vahid halda birləşir və erkən gənclik yaş sərhədində Mən konsepsiyası formalaşır.

Özünüdərk və "Mən obraz"ı yeniyetməlik yaş dövrünün ən mühüm psixoloji inkişafına çevrilir. Öz davranışını anlamaq və onun xarici tələblərə uyğunluğunu qiymətləndirmək ehtiyacı yeniyetmələrdə özünütəhlil sayəsində həyata keçirilir. Bu, adətən, yeniyetmənin öz psixoloji xüsusiyyətlərindən narazılığına reaksiya kimi yaranır. Mahiyyət etibarı ilə o, başqalarından fərqli subyekt kimi özünün vahid konsepsiyasına inteqrasiya yolu ilə hərəkətidir. "Mən obraz"ı sadəcə olaraq fərdin öz ideyası və ya konsepsiyası deyil, sosial yönəlişdir, fərdin özünə münasibə-

tidir. Ona görə də, "Mən obraz"ında üç komponenti müəyyən etmək olar:

**1)** ***koqnitiv*** - özünütanıma, özünüdərketmə;

**2)** ***emosional-qiymətləndirici*** - özünə qarşı dəyərə əsaslanan münasibət;

**3)** ***davranış*** - davranışın tənzimlənməsinin xüsusiyyətləri.

Artıq qeyd edildiyi kimi, "Mən obraz"ı statik deyil, son dərəcə dinamik şəxsiyyət xüsusiyyətidir. "Mən obraz"ı təcrübə anında bir mənlik anlayışı kimi ortaya çıxa bilər, adətən psixologiyada ona real mən kimi istinad edilir. Kiçik məktəbli yaş dövründə formalaşmış nisbətən sabit şəxsiyyət xüsusiyyətləri yeniyetmənin davranışına təsir edir və bu xüsusiyyətlərin dərk edilməsi zərurəti yaranır. Bu ehtiyac yeniyetmənin fiziki və psixoloji quruluşunda davam edən dəyişikliklərlə daha da güclənir. Burada özünüdərketmə sistemi daha da mürəkkəbləşir. N.A. Dubenkonun apardığı araşdırmalar göstərir ki, yeniyetməlik və erkən gənclik sərhədində özünüdərketmənin yeni, daha yüksək səviyyəyə keçidini xarakterizə edən Mən konsepsiyasının idrak komponentinin inkişafında əhəmiyyətli dəyişikliklər baş verir (3).

Bir yeniyetmənin və ya gəncin özünün "Mən obraz"ı həmişə eyni cinsdən olan tipik həmyaşıdın "Biz obraz"ı ilə əlaqələndirilir, lakin heç vaxt bu "biz"lə tam üst-üstə düşmür. Orta məktəb şagirdləri öz obrazlarını "biz" qrupundan daha incə və zərif qiymətləndirirlər. N.İ. Korıtçenkova davranış tənzimlənməsinin təbiətindən və məlumatların işlənməsi üsullarından asılı olaraq yeniyetmələrin aqressiya səviyyələrinin modelini işləyib hazırlamışdır (4, s.32).

A.Y. Drozdovun nəzəri araşdırmasında özünüdərketmənin iki səviyyəsinin mövcudluğu göstərilir: aşağı "Mən və başqa bir insan" və daha yüksək "Mən və mən". İkincinin spesifikliyi özünün davranışını bir insanın dərk etdiyi və onu müəyyən edən motivasiya ilə əlaqələndirmək cəhdində ifadə olunur (5).

Yeniyetməlik yaş dövründə gənclər özlərini dərk edir, öz müstəqil özünüqiymətləndirmə və özünəmünasibət sisteminin standartlarını, öz daxili dünyalarına nüfuz etmək qabiliyyətlərini getdikcə daha da inkişaf etdirirlər. Bu yaşda yeniyetmə öz unikallığını və fərdiliyini dərk etməyə başlayır və onun şüuru tədricən xarici qiymətləndirmələrdən (ilk növbədə valideynlərin) daxili qiymətləndirmələrə keçir. Yeniyetmə tədricən öz Mən konsepsiyasını inkişaf etdirir, bu da davranışların sonralar şüurlu və ya şüursuz inkişafına kömək edir.

Beləliklə, məhz bu yaş dövründə, orqanizmdə mühüm dəyişikliklərin baş verdiyi, xarici görünüşü və fiziki xüsusiyyətlərinin onları çox narahat etməyə başladığı bir dövrdə yeniyetmənin fiziki inkişafının həmyaşıdları qrupu tərəfindən qəbul edilmiş standartlara uyğun olması onların sosial baxımından tanınmasında və qrup daxilində mövqeyində müəyyənedici amil olur.

Yeniyetmələrdə aqressiyanın spesifik təzahürləri və "Mən obraz"ı ilə bağlı psixoloji ədəbiyyatın təhlili, eləcə də yeniyetmələr arasında aqressiyanın müəyyənləşdirilməsinə yönəlmiş araşdırmalar bizə aşağıdakı nəticələri çıxarmağa imkan vermişdir:

**1.** Problemlərin həllinin özünəməxsus yolu kimi aqressivliyin ən bariz əlamətləri məhz yeniyetməlik yaş dövründə özünü büruzə verir.

**2.** Məhz yeniyetməlik yaş dövründə özünüdərk, müstəqil özünüqiymətləndirmə, özünəmünasibət standartları sistemi şəkildə formalaşır, yeniyetmənin öz daxili dünyasına nüfuz etmək qabiliyyəti getdikcə daha da inkişaf edir.

**3.** Bu yaş dövründə yeniyetmənin fiziki inkişafı həmyaşıdları qrupu tərəfindən qəbul edilmiş standartlara uyğunlaşır, onların sosial mühitdə mövqe tutmasında və qrup daxilində sosial rolu icra etməsində mühüm amilə çevrilir.

**4.** Yeniyetmələrin 56,5%-nin aqressivlik indeksi yüksəkdir.

**5.** Yeniyetmələrdə aqressiyanın daha iki formasının ifadə edildiyi aşkar edilmişdir: əsəbilik və şübhəlilik. Belə ki, sınanılanlardan 17 nəfər (73,9%) yeniyetmə aqressiyanın dominant formalarını nümayiş etdirmişlər.

**6.** Əldə edilən məlumatlar sınanılanların 60,8%-nin yüksək düşmənçilik indeksinə malik olduğunu göstərmişdir. Onların 30,4%-nin düşmənçilik indeksi normal olmuşdur. Yalnız 8,8% aşağı düşmənçilik indeksinə sahib olması müşahidə edilmişdir.

**7.** Yeniyetmələrin 56,5%-nin aqressivlik indeksi yüksək olmuşdur. 39,1%-nin normal, 4,4%-də isə aşağı düşmənçilik indeksi qeydə alınmışdır.

**8.** Məlum olmuşdur ki, aqressivliyin xüsusiyyətləri ailədəki sosial-psixoloji iqlimin xarakterindən çox asılıdır.

**Problemin aktuallığı.** Elmi məqalənin aktuallığı ondan ibarətdir ki, yeniyetməlik yaş dövründə təzahür edən aqressiya hallarının baş vermə sə-

bəbləri araşdırılır. Yeniyetmələrdə aqressiyanın spesifik təzahürlərinin və onların "Mən obraz"ı ilə əlaqəsinin psixoloji təhlili aparılır.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə yeniyetməlik yaş dövründə "Mən obraz"ının təşəkkülü və aqressivliyin təzahür xüsusiyyətləri araşdırılır. Bu yaş dövründə yeniyetmələrin çətinliklərinin xüsusiyyətləri ardıcıllıqla öyrənilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Хван, А.А. Опыт стандартизации опросника измерения агрессивности и враждебных реакций А.Басса и А. Дарки. /А.А. Хван //Психологическая диагностика. – 2015. – №1. – С.35 – 58.
2. Станкин, М.И. Общая психология [Текст] / М.И. Станкин; М.: Московский психолого–социальный институт; Воронеж: Изд–во Н.П.О. «МОДЕК», –2015.– 352 с.
3. Дубинко, Н.А. Влияние когнитивных процессов на проявление агрессив- ности в подростковом возрасте [Текст] / Н.А. Дубинко // Вопросы психоло- гии. – 2016. – №1. – С. 53–57
4. Корытченкова, Н. И. Психология и педагогика профессиональной деятельности: учебное пособие: / Н. И. Корытченкова, Т. И. Кувшинова. Кемерово: Кемеровский государственный университет, –2012. – 172 с.
5. Дроздов, А. Ю. Агрессивное поведение молодежи в контексте социальной ситуации [Текст]/ А.Ю. Дроздов // Социс: Социологическое исследование. -2018. – №4. – С. 95–98.


**Redaksiyaya daxil olub:**15.10.2025